# Qəbələ sosial-iqtisadi inkişafın və mədəni həyatın dönüş mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2012-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 1-ci səhifədə).

**Qəbələ rayonunun sürətli inkişafı ulu öndərimiz Heydər Əliyevin bu rayonun gələcəyi ilə bağlı müəyyən etdiyi inkişaf proqramının nəticəsidir. Qəbələdə çəkilən yollar, salınan parklar və xiyabanlar, tikilən yeni binalar və sənaye müəssisələri həmin proqramın real həyatımızda təsdiqidir.**

*İlham ƏLİYEV.*

«Ümumiyyətlə, 2011-ci ilin sonunda Təhlükəsizlik Şurasına seçilməyimiz çox böyük tarixi hadisə və Azərbaycan dövlətinin dünya miqyasında nüfuzunun göstəricisi idi»–deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2012-ci ili Azərbaycanın xarici siyasətində uğurlu il kimi səciyyələndirərək ötən il ölkəmizin BMT Təhlükəsizlik Şurasına sədrlik etməsini önə çəkib.

Keçən il Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələrdən danışan cənab İlham Əliyev bildirib ki, Qoşulmama Hərəkatının və NATO-nun zirvə görüşlərində qəbul edilən yekun sənədlərdə münaqişələrin ölkələrin ərazi bütövlüyü əsasında həlli konkret olaraq öz əksini tapıb.

Ordu quruculuğu ilə də bağlı ötən il böyük işlərin görüldüyünü diqqətə çatdıran dövlət başçısı 2012-ci ildə ümumi hərbi xərclərin 3 milyard dollardan çox olduğunu, bu il isə həmin vəsaitin 3,7 milyard dollara çatdırılacağını bildirib.

Enerji sahəsində ötən ildə əldə olunmuş uğurlara toxunan cənab Prezident Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən "TANAP" layihəsinin təməlinin qoyulmasını tarixi hadisə kimi dəyərləndirib.

"Bu gün Azərbaycan iqtisadiyyatı güclü iqtisadiyyatdır və bizim gözəl gələcəyimiz vardır"-deyən dövlət başçısı makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və regionların inkişaf etdirilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və əhalinin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılacağını bildirmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**





*Qəbələdə Azərbaycan —Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclası.*

2012-ci ildə Qəbələ rayonunda da sosial-iqtisadi sahədə işlər uğurla davam etdirilmişdir. Rayonumuzun ictimai həyatında baş verən əsas əlamətdar hadisə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci ilin sentyabr ayının 10-da Qəbələyə gəlişidir. Səfər zamanı ölkə başçısı bir çox mühüm sosial və iqtisadi xarakterli obyektlərin açılışında iştirak etmiş, inşaat işləri davam edən tikintilərdə vəziyyətlə tanış olmuşdur. Görülmüş işlər barədə fikirlərini söyləməklə bərabər cənab Prezident qarşımızda yeni-yeni vəzifələr qoymuşdur.

Qəbələnin ictimai-siyasi həyatındakı ən qürurverici hadisələrdən biri də 2012-ci il sentyabrın 11-də Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclasının rayonumuzda keçirilməsi və strateji əməkdaşlığa dair mühüm sənədlərin imzalanması olmuşdur.

İki dost və qardaş ölkələrin liderləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyənin Baş naziri cənab Rəcəb Tayyib Ərdoğan tədbirdə bəyanatlarla çıxış etmişlər.



*Azərbaycan Prezidenti İlham Əliyev 2012-ci il sentyabr ayının 11-də ATƏT-ə üzv ölkələrin səfirlərini qəbul etmişdir.*

İclasda Azərbaycan Prezidenti bu gün Türkiyə-Azərbaycan əlaqələrinin nəinki ikitərəfli münasibətlərin inkişafı üçün vacib olduğunu, həmçinin bölgədə sülhün, sabitliyin, təhlükəsizliyin təmin edilməsi üçün sabitləşdirici rolunun oynadığını bildirmişdir.

Türkiyənin Baş naziri də düşüncələrimizin ortaq düşüncələr olduğunu söyləyərək belə toplantıların paytaxtdan daha çox müxtəlif vilayətlərdə keçirilməsini təqdir etmiş, bunun vilayətlərimizin tanınmasına və tanıdılmasına fürsət verilməsi baxımından olduqca gözəl bir anlayış olduğunu vurğulamışdır.

Qeyd edək ki, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ilk toplantısı Türkiyənin İzmir şəhərində keçirilmişdir.

Həmçinin Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının 5 dekabr 2012-ci il tarixli qərarına əsasən Qəbələ 2013-cü ildə birliyin mədəniyyət paytaxtı seçilib.

**Hörmətli yığıncaq iştirakçıları!**

Bu gün Qəbələ öz intibah dövrünü yaşayır desək yanılmarıq.

Rayonumuzun ərazisi 1548 kvadratkilometr, əhalisi 98276 nəfərdir. Əhalinin 78,7 faizini azərbaycanlılar, 17,1 faizini ləzgilər, 0,4 faizini udilər, 0,2 faizini türklər, 3,6 faizini isə digər millətlərin nümayəndələri təşkil edir. Rayonda 1 şəhər, 3 qəsəbə, 60 kənd vardır. Yaşayış məntəqələrində 60 icra nümayəndəliyi, 55 bələdiyyə fəaliyyət göstərir.

(Ardı 3-cü səhifədə).